# Şəxsiyyət

**Yeni Azərbaycan Partiyası Veteranlar Şurasının və AMEA-nın Qadınlar Şurasının üzvü, "Modern İnkişaf və Ailə" İctimai Birliyinin sədri Zərifə Quliyevanın təzəcə nəşr olunmuş "Heydər Əliyev irsi" adlı kitabı müəllifin müxtəlif vaxtlarda cari mətbuatda çap olunmuş elmi-siyasi məqalələrinin toplusudur. Nəfis tərtibatla nəşr olunmuş bu kitab Azərbaycanın Ümummilli Lideri, Azərbaycan dövlətçilik institutunun görkəmli siyasi xadimi Heydər Əliyevin ölkəmizin suverenliyi, çoxşaxəli və çoxistiqamətli inkişaf və tərəqqi strategiyasının təməlini qoymuş, onu yüksəklərə qaldırmış, böyük bir dühə sahibi olan Ulu Öndərimizin mənalı həyat və zəngin siyasi fəaliyyətinin bir qisminə həsr olunmuşdur.**

Kitabı oxuduqca hiss olunur ki, müəllif Ulu Öndər Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyətindəki aliliyi, habelə öz qələminin bütün vacib, gərəkli vasitələrindən bacarıqla istifadə etməklə qarşısına qoyduğu məqsədə çatmaq naminə səfərbər etdiyi amillərə kifayət qədər bacarıqla nail olmuşdur. Kitabın mündəricatında göstərildiyi kimi əsər Azərbaycan cəmiyyətinin siyasət nümayəndələri, elmi tədqiqatçıları, tələbələr, həmçinin geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.

Müəllif Zərifə Quliyeva əsərin birinci fəslində Ulu Öndər Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi hər iki dövrü, - həm sovet zamanlarını, həm də müstəqillik dövrümüzün tarixi çətinliklərini, gerçəkliklərini və uğurlarını ictimai-siyasi kontekstdə qismən əhatə etməyin anonsunu vermişdir. "Qismən" sözünü ona görə işlədirəm ki, Azərbaycanın dövlətçilik tarixində misilsiz və əbədi izlər qoyan, - "Mənim həyatımın məqsədi Azərbaycandır! Azərbaycan xalqıdır, Azərbaycan Respublikası və Azərbaycan vətəndaşıdır" deyən dahi Şəxsiyyətin ucsuz-bucaqsız quruculuq, xilaskarlıq, dövlətçilik fəaliyyəti bir kitaba, bir əsərə sığmazdır. Müəllif, tanınmış ziyalı xanım, ictimai-siyasi xadim olan Zərifə Quliyeva bu kitabında bütün həyatı, ömrü-günü ilə Azərbaycan dövlətinə və Azərbaycan xalqına bağlı olan bir qüdrətli dövlət xadiminin - Heydər Əliyevin böyük, ümman fəaliyyətinin bir damlasını əhatə etmişdir. Əsərdə 1969-1982-ci illərdə Azərbaycan Respublikasında kənd təsərrüfatında, sənayedə, tikintidə, elm, mədəniyyət, təhsil, səhiyyə sahələrində qazanılan misilsiz uğurların, inkişafın, tərəqqinin böyük göstəricilərini faktlarla sadalamışdır. "Heydər Əliyev və Yeni Azərbaycan" bölümündə müasir müstəqil Azərbaycanda demokratiyanın təməlini qoyan görkəmli partiya və dövlət xadimi Ulu Öndərin yaratdığı Yeni Azərbaycan Partiyasının Azərbaycan cəmiyyətindəki böyük rolu geniş və əhatəli təhlil edilir. Məşhur "91-lər"in tarixi müraciəti əsasında Ümummilli Lider Heydər Əliyev Yeni Azərbaycan Partiyasının yaradılmasına və ona rəhbərlik etməyə razılıq verməsi ilə Azərbaycanı böyük bəlalardan qurtaran Böyük Qayıdış baş tutdu. Əsərdə göstərilir ki, Ümummilli Liderimiz Naxçıvandan Bakıya yüksək vəzifəyə gələnə qədər ölkədaxili bütün sahələrdə hərc-mərclik baş alıb gedirdi. Demokratik dəyərlərin təşəkkülü yolunda heç bir iş görülmürdü. O zaman bütün milli-mənəvi dəyərlər - Vətən sevgisi fəlsəfəsi həm də milli əxlaqi fəlsəfəsi artıq uçurum qarşısında idi. AXC-Müsavat cütlüyü dağıtmaq, məhv etmək yolunda elə bil bir- biri ilə bəhsə girmişdi. Bütün bunlara züy tutan o zamankı bir çox başıpozuqlar Cənubda qondarma "Talış-Muğan respublikası", Şimalda isə "Sadval"çılar "Ləzgistan" yaratmaq eşqi ilə çalışırdılar. Gəncəbasarda nankor polkovnik Surət Hüseynovun başçılıq etdiyi silahlı qiyamçıların üzdəniraq əməlləri ölkəmizin müstəqilliyinə, ən əsası ərazi bütövlüyünə ciddi təhlükə yaratmışdı. Belə bir ağır məqamda xalqın inadlı tələbi, Vətənin kövrək çağırışları ilə sinəsini irəli verən müdrik dövlət xadimi Heydər Əliyev gərgin situasiyaların qarşısını almaq, ölkəni dərin xaosdan xilas etmək üçün cəsarət və xilaskarlıq qiyafəsində ölkəmizin üfüqlərində Günəş kimi parladı!

Xalqın qəlbində, millətin gözləri önündə böyük bir xilaskar rəhbər obrazı yarandı. Müstəqil Azərbaycan dövləti təşəkkül tapmağa başladı. Böyük dövlətçilik dühasına sahib olan Ulu Öndər Heydər Əliyev tarixi ənənə, mədəniyyət, hüquq və başqa dəyərlərin daşıyıcısı olan dövlət quruculuğu fəlsəfəsi əsasında mütərəqqi ideyalarının öncül dayaqları üzərində intellekt, dərin zəka, müdrik uzaqgörənliklə çalışmağa başladı. Burada böyük rus alimi E.A.Berdayevin sözləri ilə desək həqiqət, düzgünlük...Və həqiqət ədalətlə birləşərək yüksək əxlaqi dəyər yaradır ki, bu dəyər də məhz xalqa, Vətənə məhəbbət sayılır. Heydər Əliyevin qurub-yaratdığı müstəqil Azərbaycan dövlətinin beynəlxalq arenada strateji dərin məna və işıqlı mahiyyət kəsb edən böyük həm iqtisadi, həm siyasi qələbəsi bir-birinin ardınca düzülməyə başladı.

"Heydər Əliyev irsi" adlı elmi-publisistik, siyasi stixiyalarla zəngin bu kitabda sadaladığım məsələlər beləcə ciddi faktlarla və inandırıcı şəkildə şərh edilir: "Heydər Əliyev üçün müstəqil Azərbaycan fəlsəfəsinin təməlində Azadlıq, Demokratiya, İqtisadi tərəqqi, Sosial ədalət və Rifah durur." Müəllifin elmi-nəzəri qənaətincə, öz xalqının etnoqrafiyasını dərindən və mükəmməl bilən, onu bütün siyasi




və dövlətçilik boyu qoruyan, yaşadan, inkişaf etdirən Ulu Öndər Heydər Əliyev haqlı olaraq qeyd edirdi: "Mən bu gün bir daha o anları, o dəqiqələri, o saatları, o gərgin gecəni oktyabrın o işıqlı günəş şüaları ilə işıqlanmış Bakını yadıma salıram. O zaman həmin indiki xalq mənim səsimə səs verdi". Kitabda sitat kimi göstərilən bu sadə, lakin dərin mənalı sözlərdə işıqlı və mürəkkəb fəlsəfi dövlətçilik personalizm dəyərləri özünü bariz şəkildə göstərməkdədir. Xalqına arxalanan, Vətənin övladlarına qəlbən inanan əbədi rəhbər Heydər Əliyev- "Mən bir daha o anları, o dəqiqələri, o saatları, o gərgin gecəni, oktyabrın o işıqlı Günəş şüaları ilə işıqlanmış Bakını yadıma salıram." Məhz o işıqlı Bakı "Heydər Əliyev irsi" kitabında "öz taleyini xalqına tapşıran" bir Ulu Rəhbərin aristokratik dəyərlərlə dolu fəlsəfi, həm də poetik düşüncələridir. Deməli, Vətənimizin, xalqımızın müqəddəratını, bugününü, gələcəyini, "an-an, dəqiqə-dəqiqə, saat-saat" düşünən Azərbaycanın müstəqilliyini hər bir nəsnələrdən uca tutan Böyük Şəxsiyyət Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsinə müdrik intuisiya pillələrindən baxırdı. Bütün bunlar "Heydər Əliyev irsi" kitabının "Milli qurtuluşdan zəfərə doğru" bölümündə daha orijinal üslubda öz əksini tapmışdır:- "Azərbaycan böyük təhlükə qarşısında idi. Çünki Azərbaycanın müstəqil yaşamasının əleyhinə olan həm daxili qüvvələr güclü idi, həm də Azərbaycan kimi böyük coğrafi strateji əhəmiyyətə, zəngin təbiətə malik olan ölkənin tam müstəqil olması bəzi başqa ölkələrdən kimlərisə qane etmirdi".

Böyük dövlətçilik təcrübəsi və əbədiyaşar əməlləri ilə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçilik institutunu formalaşdıran Heydər Əliyev dövrün ictimai-siyasi konyukturasından obrazlı şəkildə qaynaqlanıb gələcəyi ümidlərlə hədəf seçən nəhəng fəaliyyəti ilə sonradan dili özündən iki dəfə uzun olan bəzi üzdəniraq buqələmunların arzusunu gözlərində qoydu.. Ümummilli Liderimizin ölkəmizi, xalqımızı dünyanın inkişaf etmiş xalqları səviyyəsinə qaldıraraq təkcə daxili düşmənləri yox, xarici bədniyyətləri, mənfur qonşuları da məyus etdi. "Heydər Əliyev irsi" adlı kitabda "Yeniləşən Azərbaycan modeli" bölümü öz siyasi-publisistikası analogiyası baxımından daha ekszentizal motivlərlə zəngindir. Bu da oxucularda maraq və məmnunluq yaradır. Müəllifin fikrində Yeniləşən Azərbaycan modelinin zənginliyi Ulu Öndərin uzaqgörənliyi və fərqli ideoloji qənaətləri ilə şərtlənir. Bütün bunlar Ümummilli Lider Heydər Əliyevin öz xalqını zamanın mürəkkəb tarixi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizələrə apararaq onu müstəqilliyə qovuşdurmuş, qüdrətli bir şəxsiyyətin mənalı və parlaq fəaliyyəti üzərində bərqərar olmuşdur. Kitab başdan-başa bu ideyalarla mənalanır. Nəfis tərtibatla nəşr olunan, məna və məzmunca fərqli bu məqalələr toplusunda Ulu Öndər Heydər Əliyevin layiqli varisi olan Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin hələ 27 sentyabr 2020-ci ildə etdiyi tarixi müraciəti də kitabda özünə layiqli yer almışdır: "Bizim mövqeyimiz beynəlxalq hüquqa və ədalətə əsaslanır. Biz öz torpağımızda vuruşuruq. Ermənistan işğalçı dövlətdir. Bu işğala son qoyulmalıdır və son qoyulacaq!"

Zəfər və qələbələrlə dolu prezidentlik fəaliyyətini ölkəmizin inkişafına və tərəqqisinə, Vətənimizin ərazilərinin düşməndən təmizlənməsinə sərf edən Qalib və Müzəffər rəhbər İlham Əliyev 27 sentyabrdan başlayaraq qələbələrə gedən yolda cəmi 44 gün ərzində istəyinə nail oldu. Elə bununla da böyük uğurlarımızın istiqaməti genişləndi, ərazilərimiz bütövləşdi, qəriblikdə qalan bizdən ötrü ağlayan, sızıldayan kəndlərimiz, rayonlarımız Vətənimizə qovuşdu.

"Heydər Əliyev irsi" kitabı "Bugünkü Azərbaycan Heydər Əliyevin görmək istədiyi Azərbaycandır" adlı lokanik bir yazı ilə yekunlaşır. Tarixi zərurəti, sosial ədaləti, xalqın iradəsini və rifahını öz dövlətçilik, idarəçilik fonunda həmişə əsas tutan Ulu Öndər Azərbaycan siyasətini daha aydın, daha nəzərəçarpan tərəfi kimi yaşadaraq bugünkü ölkəmizin qəhrəmanlıq mərhələsini hələ o zaman aydın görərək demişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə ümidlər bəsləyirəm". Cənab İlham Əliyevin düşünülmüş daxili və xarici siyasəti nəticəsində ölkəmiz bütün sahələrdə yüksək nəticələr əldə edir, bir sıra beynəlxalq tədbirlər paytaxtımız Bakıda ünvan tapır, böyük dövlətlərin rəhbərləri Azərbaycana maraq göstərir, qonaq gəlir, bu da Azərbaycan Respublikasının bir az obrazlı, poetik desək, dünya səviyyəsində tanınması ilə nəticələnir. Bəli, bu gün Azərbaycan dünyanı gəzir! Zərifə Quliyevanın son vaxtlar istedadlı qələm sahibi kimi məhsuldar çalışması elə bu "Heydər Əliyev irsi" adlı kitabında özünü bariz şəkildə büruzə vermişdir.

***Tahir Məmmədov,***
***"İki sahil"***